

*Allahverdi Eminov*

# "Yenə həmən dünya, həmən qəfəsdi"...

**Sabir Məmmədzadə. İndi unudulmuş şair, halbuki o, bu haqsızlığa layiq olmayan insandı. Xasiyyətiylə, istedadıyla Mirbəşirdə doğulmuşdu və yeganə Anasına malikdi. Bakıda oxudu, işlədi və dünyasını dəyişdi. Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq fakültəsini bitirmişdi: əslində filoloq olmaq istəyirdi. Ömrünün sonunadək M.F.Axundov adına respublika kitabxanasında çalışdı. Bəli, ədəbiyyata "ciddi" şeirlərlə gəlmişdi və 50-ci illərdə "Əsgər qaşığı və mən" şeiriylə ("Azərbaycan gəncləri" qəzeti) məşhurlaşdı. Onda orta məktəbdə oxuyurdum. Pedaqoji İnstituta girəndə həmkəndlimiz, mərhum iqtisadçı Ələsgər Cəbrayılov dənizkənarı bulvarda Cəlil Ağayevin sarmaşıqlı çayxanasında onu kənardan göstərdi. (Sən demə, çay azarkeşləri buraya gəlirmişlər). İllər keçdi, o vaxtkı Lenin kitabxanasında şairlərlə görüşlər, onların yeni kitablarının müzakirələri müntəzəm keçirilirdi. Sabir Məmmədzadəni mərhum şair və satirik Əfrayıl Məhərrəmov mənə yaxınlaşdırdı:**

- Əhəd Hüseynovun ədəbiyyat dərnəyindən çıxıb, - dedi - məşhur tədqiqatçını deyirəm. Üzünü ərkyana Sabirə tutdu. Sabir Məmmədzadə başıyla təsdiq elədi...

"Pioner" və "Göyərçin" jurnalları yeganə uşaq dərgiləriydi. Yüksək bədii səviyyəliydi. Baş redaktorları şair Zeynal Cabbarzadə və yazıçı Hüseyn Abbaszadəydi. Sabirin şeirləri çıxırdı. Orta məktəbdə dil və ədəbiyyatını tədris eləyirdim. Nümunələr gətirirdim. Elə özüm də bir dərnək yaratmışdım. "Tom Soyyerin və Heklberi Finnin son macəraları" romantik poemasını təzəcə oxumuşdum. Dilin sadəliyi, hadisələrin macəravapiliyi, Finnlə Tomun dostluğu maraqlı səslənirdi. Və poema belə lakonik misralarla başlayırdı:

**İllər boyu yoldaş olan,**
**Finn ilə Tom - iki oğlan,**
**Ölkələri gəzə-gəzə**
**Qonaq gəldi ölkəmizə....**

Sabir Məmmədzadə son dərəcə təvazökar, insanpərvər, nikbindi. 70-80-ci illərdə xüsusilə tanınan uşaq şairi olduğuna baxmayaraq, özünü büruzə verməzdi. Kənardan baxanda adama elə gəlirdi tənhadır, "öz dünyasındadır": bir səbəb də vardı. Əslində ailə qurmamışdı. Bayılda birinci mərtəbədə həyət evində birotaqlıda yaşayırdı. Bu birotaqlını da elə - belə almamışdı, "siyasi-görüşləri"nin məhsuluydu. O, gənc kadr kimi M.F.Axundov adına Respublika Kitabxanasına təyinat almışdı. İstəyirdi insan kimi yaşasın və yeganə varidatı anasını Mirbəşirdən gətirsin. Cəhdlər mümkün olmur və cəsarətlə Çexoslavakiya səfirliyinə müraciət eləyir ki, o, sovet vətəndaşlığından çıxır. Təsəvvürümüzə gətirək. Gənc şair, ali təhsilli mütəxəssis... ev-eşiksizdir və Sovet ideologiyasından narazıdır. Sabirin qara günləri başlayır, Mərkəzi Komitənin qulbeçələrinin əlinə aman düşür və onu hədələyirlər. Hətta Yazıçılar İttifaqına göstəriş verilir ki, nə bada, S.Məmmədzadəni üzv qəbul edəsiz, hətta onu hədələyirlər. Gənclərdən Nizami Oruc, Fəxrəddin Fərzəli, Əli Rəşidoğlu, İsrafil İbadov, Əfrayıl və mən şənbə, yaxud bazar günləri ona yoluxurduq. Sevinirdi, dərhal mətbəxə keçib çay və soyuq süfrə açırdı. İsrafil "Gənclik" nəşriyyatında redaktordu, bir şeirlər kitabı işıq üzü görmüşdü. Əfrayıl artıq imzası ilə, xüsusilə etnoqrafik hekayələriylə tanınmışdı. Təhsil Nazirliyinin baş inspektoruydu. Nizami Oruc tələbəydi, şeirləri çıxırdı. Əli Rəşidoğlu universitetdə başını qiyabi girləyirdi, Fəxrəddin universitetdə yaxşı oxuyurdu, uşaqlar üçün kiçik şeirlər qələmə alırdı. Bu canlı ünsiyyətcil oğlanlardan Əfrayıl, İsrafil, Əli dünyalarını vaxtsız dəyişdilər. Amma ölənə qədər rəhmətlik Sabir Məmmədzadəyə münasibətlərini dəyişmədilər.

Düzü, o illərdə Yazıçılar İttifaqında yaşlı nəslin cavanlara münasibəti çox quruydu, qayğısızlıq üstündü. Kitab(ça) plana saldırıb çapına nail olmaq müşküldü. Uşaq ədəbiyyatına laqeydlik vardı; az-çox mərhum Tofiq Mütəllibov, Xanımana Əlibəyli, Hüseyn Abaszadə, Rəfiq Zəka kitab nəşrindən nigarançılıq keçirmirdilər. Namiq Abdullayev kimi böyük fantast yazıçını heç İttifaqın və nəşriyyatların kandarına buraxmırdılar. Sabir Məmmədzadə vur-tut iki şeirlər ki-tabçasının müəllifiydi. Maraqlı o idi, o vaxt Alla Axundovanın tərcüməsində Moskvada "Klyuç" şeirlər kitabı çapdan çıxmışdı. Sabirə mənfi münasibəti onun yazdığı bir şerdi...

Ezop üslublu şeirin qəhrəmanları müxtəlif xasiyyətli heyvanlardı. Yazıçılar İttifaqına bələd olanlar şeiri beləcə də yozmuşdular: katiblər mübhəm mətləbləri özlərinə şamil etmişdilər. Və təbii ki, S.Məmmədzadə "atılmışlar" cərgəsində özünə yer almışdı... Bir gün Nizami Oruc İnstituta gəlmişdi, qoşulub dənizkənarına getdik, artıq Lənkəranlı rəhmətlik Cəlilin çayxanasını qala divarlarına söykənmiş göyçaylı rəhmətlik Zülfünün çayxanası əvəzləyirdi. Biz də buranın sayılıb-seçilən müştərilərindən sayılırdıq. Nizami qoltuq cibindən kiçik kitabça çıxardı: - Sa-birindi, - mənə uzatdı.

"Xumar"dı adı, pis tərtibdə deyildi. "Külək və şair" şeiriylə açılırdı:

**Ata iki şar aldı:**
**Biri sarı, biri ağ.**
**Sevil çox razı qaldı:**
**- Mənim şarım vardır bax!**
**Alıb apardı külək**
**Sevilin ağ şarını,**
**Sonra küləyə dedi: -**
**Qoy səndə qalsın o şar.**
**Oynat ömrü boyunca,**
**Oynat gözün doyunca,**
**Sonra özümə qaytar.**

Vərəqlədim, "Dondurma", "Pambıq yeyən qız", "Cəfər və sərçə", "Göyərçin", "Bizim ay", "Dənizçi", "Bosman", "Heykəl" və bir neçə mənzum poemalar, nağıllar.

Ümumiyyətlə, Sabirdən, Abbas Səhhətdən, Abdulla Şaiqdən, Rəşidbəy Əfəndiyevdən sonra Azərbaycan uşaq ədəbiyyatı misilsiz şeirlər üçün kasadlıq çəkibdir. Qəribədir, "Keçi", "Uşaq və buz", "Dovşan", "Durnalar", "Yaz səhəri", "Cücələr" mövzularında yüzlərlə şeirlər qələmə alınsa da, o səviyyəyə qalxmamışdır. Suala on illərdir cavab axtarıramsa, real fikrə gəlməkdə çətinlik çəkirəm. - Müəlliflərmi, istedadmı, dil-üslubmu, vaxtmı? Axı, çağdaş şairlərimiz əksinə, ali təhsil almışdılar, ağıllı uşaqların müasirləriydilər, məktəblilər arasındaydılar və azad nəfəs alırdılar. Amma ki... Məncə, sadaladığım bu amillərin hamısının qeyri-adi rolu yox deyil. Ona görə də uşaq dərsliklərimizdə, oxu kitablarımızda bir qıtlıq var, klassik şeirlərdən çıxılmaz olaraq dördəllə yapışmışlar. S.Məmmədzadə, Mirmehdi Seyidzadə, Mikayıl Rzaquluzadə illərində yaşamış, onlarla dəfələrlə görüşmüş, söhbətlərdə bulunmuşdur. Bəlkə də bu nəfəs, məsuliyyət ona seçimli, mündəricəli şeirlər, səhnə əsərləri, mənzum poemalar yazmaq cəsarəti vermişdi. Sabirin şeirlərində uşaq idrakının labirinti sadə suallara cavablarıyla; filən şey niyə belədir, başqa cür deyil, gördüyüm heyvan nə üçün məndən qaçmır və ilaxır assosiativ fikirlərin doğurmasına imkan verirdi. Mən heç də Tofiq Mütəllibovun, Xanımana Əlibəylinin, Mirmehdi Seyidzadənin və başqa uşaq şairlərin xidmətini azaltmaq istəməzdim. Əslində çox populyar idilər. Sabir Məmmədzadə fərqli olaraq, şeirlərində uşaq səmimiyyətini, qeyri-adiliyə gədən idrak maraqlarını və kiçik əhvalatda - təsvirdə hətta böyüklərı düşündürən fikirləri təsvir edirdi. "Nə asandır, nə çətin?", "Quşbaşı qar və quşlar", "Bizim ay" və sair poetik nümunələr maraq doğururdu:

**Bu çox asanca saydı:**
**Yeddi dənə almam var.**
**Bir dənə də olsaydı,**
**Səkkiz olardı onda.**
**Ancaq bir almanı mən**
**Hardan alım görəsən?**
**Çətindir bu məsələ;**
**Gücün çatar, həll elə.**

Bir adi məsələdə şair inteqrativ dialoq yaratmışdır: Sayı sadə quran, təbii almaların miqdarını dəqiqləşdirən uşaq istəyir səkkiz olsun. Lakin real şəkildə birini tapmaqda çətinlik çəkir. Uşaq saxta yolla almaların sayını səkkizə çıxara da bilərdi, hər halda bunu özü bacarmadığından, müsahibinə üz tutur və ona inanır. O da bunun öhdəsindən gəlməyəcəkdir. "Quşbaşı qar və quşlar"da quşları soyuq havada yemləmək istəyən bunun üçün uşaqlardan kömək gözləyən qızcığazın siması canlanır. Şeirin əsas məziyyəti bu fikrin lakonik, birbaşa deyimlə müşayətidir:

**Ağır ağır,**
**Yenə yağır**
**Quşbaşı qar,**
**Ay uşaqlar,**

Yaxud:

**Gəlin görək,**
**Dən götürək,**
**Səsləyirlər,**
**Gözləyirlər**
**Quşlar bizi,**
**Dənimizi.**

"Heykəl"də Sabir ulu Sabirin heykəlini göstərməklə məşhur şeirini xatırladır, şairə uşaqların məhəbbətini ifadə etmiş olur:

**Uzatdı sağ əlini,**
**Sabirin heykəlini**
**Göstərib Nazim dedi:**
**-O çox yaxşı əmidi.**
**"Dərsə gedən bir uşaq"**
**Şerini o yazıb, bax.**

Sabir Məmmədzadə "Xumar", "Qaranquş balaları", "Bil və Vil", "Həvəskar kulubunun üzvləri", "Nəhəng qarpızın nağılı" və qeyri mənzum nağılları, poemaları da qələmə almışdır. Bu uşaq əsərlərində epik lövhələr, uşaq xarakteri, intizarın doğurduğu nigarançılıq, imkanın gerçəkləşməsi həqiqəti, məqsədi yetişdirməkdə təkidlik imanı və s. proseslər Sabirin yaradıcılığına məxsus fərdi üslubla tərənnümünü tapmışdır. Mən bəzi orta məktəblərdə, uşaq kitabxanalarında bu əsərlərin balaca oxucuların müzakirəsinə verildiyini xatırlayıram. Bayıldakı kitabxanada Nizami Orucla "Xumar" kitabının müzakirəsinə dəvət almışdıq. Yaxınlıqdakı məktəbin ədəbiyyat müəllimi Svetlana Namazova müəllifi və şeirləri barədə danışdı. İbtidai siniflərdə bu şeirlərdən istifadə edildiyini vurğuladı. O vaxtlar professor Yəhya Kərimov "Ana dili" və "Oxu", "Əlifba" dərsliklərində Sabir Məmmədzadənin şeirlərinə yer vermişdi. Bu, adi hal deyildi, dərsliklərə yüksək mündəricəli, düşündürücü, sadə və təbii təsvir vasitəli, üslublu poetik nümunələr salınırdı. Uşaqlar məhz əzbərləyirdilər "Həvəskarlar kulubunun üzvləri"ni. 70-ci illər üçün ən yaxşı mənzum uşaq poeması idi. Ona görə yox ki, məzmunu heyvanların birgəliyi və bir sənətə yiyələnməsi məsələsi idi. Və uşaqları peşəyə istiqamətləndirmək ruhunda idi, həqiqətən, hər bir heyvan öz vərdişinə müvafiq peşəyə sahib olmağı arzulayır və bu məqsədlə də dərnəyə gəlirlər. Məstan, alabaş, xoruz, qartal, qaz, meymun, o cümlədən siçanlar da:

**Meymunla Ayı**
**Rəqs eləməyi.**
**Bülbüllə Turac**
**Nəğmə deməyi...**
**Qazlarla Qular**
**Dəniz görməyi,**
**Mavi sularda**
**Gəmi sürməyi...**

Bircə siçanlara bu, qismət olmur. Niyə? Nə üçün? Uşaqları da maraqlandıran bu suallardır. Məgər siçanlar əfəl heyvanlardır? Lakin:

**Təkcə siçanlar -**
**Qorxub qaçanlar**
**Qıraqda qaldı.**
**Lap onlar da yazılardı,**
**Başqa səbəb yoxdu bunda;**
**Məstan adlı pişik vardı**
**Həvəskarlar klubunda.**

Günlərin birində Salyan Müəllimlər İnstitutun çayxanasında idim, şair Nizami Orucla Sabir Məmmədzadəni yada saldım: Eyni zamanda institutda oxuyanda Bayılda kirayənişindi, Sabirlə qonşu küçədə tez-tez görüşürdülər. Ümumiyyətlə, bu istedadlı şairdəki ünsiyyətcilikdən, qayğıkeşlikdən və öncə təmannasızlığından.

**-Sağ ol müəllim, - Nizami Oruc dilləndi, - çay stəkanını nəlbəkiyə qoydu. - Onunla ikilikdə xoş anlarımız, poeziya ilə bağlı söhbətlərimiz istənilən qədərdi. Bədahətən misralar deyərdi, hazırcavabdı. Troleybusla birgə gələrdik çox vaxt, Pedaqoji İnstitutun həndəvərində düşərdik. O, kitabxanaya, mən İnstituta gedərdik.**

**(ardı var)**